


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (21.163)

17 yanvar 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əliyev Mehman Həsən oğluna

Gülməmmədova Nəzakət Həsən qızına

İbrahimova Kəmalə Yaqub qızına

Quliyeva Akifə Həmid qızına – **“Əməkdar həkim”** fəxri adı;

Bayramova Məryəm Abdulla qızına

Kazımova Tərlan İbrahim qızına

Səfərova Könül Məhəmməd qızına

Tahirli Abdulla Əsəd oğluna – **“Əməkdar tibb işçisi”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 yanvar 2015-ci il*

## “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında daxili işlər orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Bağırov Sudeyib Hüseyn oğlu

Bayramov Ədalət Fərman oğlu

Əliyev Taryel Məmməd oğlu

Həsənov Əli İslam oğlu

Həsənov Qafil Vəli oğlu

Kazımov Tağı Kazım oğlu

Kərimov Əli Hüseynəli oğlu

Rəhimov Habil Ələsgər oğlu

Şahhüseynov Rasim Lətif oğlu

Şirəliyev Namiq Musa oğlu

Şükürov Zaur Məmməd oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 yanvar 2015-ci il*

## Tikintidə təhlükəsizlik məsələlərinə diqqət daha da artırılıb



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 5 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində maarifləndirici tədbir keçirilib.*

Aidiyyəti təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbiri nazir, general-leytenant Şamı Abdullayev açıb. Bildirib ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, tikinti sahəsinin də sürətlə inkişaf etdiyi bir dövrdə tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində qanunvericilik bazası təkmilləşdirilib, bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib.

“Belə tədbirlərdən biri Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin yaradılması olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 27 aprel tarixli Fərmanı ilə “Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi haqqında Əsasnamə” təsdiq edilib. Əsasnaməyə uyğun olaraq, idarə muxtar respublika ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində dövlət nəzarətini həyata keçirir”, – deyən Şamı Abdullayev tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, adıçəkilən idarə 2010-cu ildə yeni inzibati bina ilə təmin olunub. İdarənin fəaliyyətinin genişləndirilməsi ilə bağlı idarənin tərkibində sektor səlahiyyətli mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılıb və bu günə kimi Türkiyə, İngiltərə, İsveçrə və Rusiya istehsalı olan 98 adda ən müasir sınaq avadanlıqları ilə təchiz olunub.

Qeyd olunub ki, ötən müddət ərzində həmin idarə tərəfindən muxtar respublika ərazisində tikintisi başa çatdırılmış və davam etməkdə olan bina və qurğuların qeydiyyatı aparılıb, mühəndis-geoloji işlərin aparılması ilə bağlı 79 obyekt ərazisindən quyu və şurf qazma üsulu ilə götürülən qrunt nümunələri analizdən keçirilib, müvafiq hesabatlar hazırlanıb. Tikintidə istifadə olunan tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması məqsədilə idarənin mühəndis-geoloji, sement və beton laboratoriyasında 1252 sayda sınaq keçirilib. Keçirilən sınaqlar zamanı 40 adda tikinti materialları nümunəsinin standartların tələblərinə iradlar bildirilib.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımov məruzəsində adıçəkilən qaydaları izah edib, verilən sualları cavablandırıb.

Məruzə ətrafında müzakirələrdə nazirliyin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədov, Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi Emin Qasımovun çıxışları olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Kamil Süleymanov tədbirə yekun vuraraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 5 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları” və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş “Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları” barədə danışıb və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görüləcək işlərdən bəhs edib.

*Yanvarın 16-da AMEA Naxçıvan Bölməsində keçirilən elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.*

## 20 Yanvar faciəsinin 25-ci ildönümü qeyd edilir

Sonra 20 Yanvar şəhidlərinin, Vətənimizin azadlığı və ərazi bütövlüyümüzün təmin olunması uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarından şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun “20 Yanvar ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət”, böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Məşələ dönmüş ürəklər: Vətən öz şəhidlərini unutmur”, şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin “Ümummilli lider Heydər Əliyev və 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi”, şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun “Qanlı Yanvarın ibrət dərsləri” adlı məruzələri dinlənilib.



Məruzələrdə vurğulanıb ki, milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. 20 Yanvar tarixi Azərbaycan xalqının tarixində, sadəcə, kədərlə xatırlanacaq gün deyil, həm də bizim üçün şan və şəraf günüdür, milli qürur günüdür.

* * *

“20 Yanvar faciəsi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olub. Azərbaycan xalqı ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənərək buna öz qəti etirazını bildirib. Lakin Sovet İttifaqının rəhbərliyi sivil insanlara qarşı silahdan istifadə edilməsinə göstəriş verib və 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeridilərək misli görünməmiş qırğın törədilib”.

Bu fikirləri Naxçıvan Dövlət Universitetində 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə rektor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov səsləndirib.

Rektor bildirib ki, ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra məhz ümummilli liderin təşəbbüsü ilə bu məsələ yenidən gündəmə gətirilib, həmin hadisələrə siyasi-hüquqi qiymətin verilməsinə nail olunub.

Tədbirdə ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar Kəngərlinin, hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Ramazan Abdullayevin məruzələri dinlənilib.

Tədbirdə 20 Yanvar faciəsi ilə bağlı qısametrajlı film nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabı nəşr olunub

*Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabı “Elm və təhsil” nəşriyyatında çap olunub.*

Kitabda Asiya ölkələrinin dünya siyasətində və beynəlxalq münasibətlər sistemindəki yeri, mövqeyi və əhəmiyyəti təqdim olunur. Müəllif eyni zamanda beynəlxalq münasibətlərin üzvi tərkib hissəsi olaraq Azərbaycan Respublikasının Asiya ölkələri ilə çoxcəhətli əlaqələrinə də kitabında geniş yer ayırıb.

Bütövlükdə, altı bölmə, 27 yarımfəsildən ibarət olan 312 səhifəlik kitab “Nəticə” və ədəbiyyat siyahısı ilə tamamlanır.

“Çin Xalq Respublikası beynəlxalq münasibətlər sistemində” adlanan birinci bölmədə Çin Xalq Respublikasının dünya siyasətində mövqeyi, həmçinin Asiya ölkələri ilə əlaqələrinə nəzər salınır. Azərbaycan-Çin əməkdaşlığı isə ayrıca yarımfəsildə geniş təhlil obyekti kimi çeşidli faktlarla araşdırılır.

“Beynəlxalq münasibətlər və Yaponiya” bölməsi də maraqlı mövzular üzrə təqdim olunur. Burada dünya siyasətinin cazibə qüvvəsi kimi xarakterizə edilən Yaponiyanın ABŞ, ÇXR, Rusiya və digər Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələrindən geniş söhbət açılır. Əsərin müəllifi Azərbaycan-Yaponiya əməkdaşlığı məsələlərinə də ətraflı nəzər salır, ölkəmizin Yaponiya ilə siyasi-diplomatik əlaqələri, təhsil sahəsində əməkdaşlığı, turizm, səhiyyə, idman, eləcə də mədəni və ədəbi əlaqələrindən ətraflı bəhs edir.

Kitabın “Koreya Respublikası dünya siyasətində” adlanan xüsusi fəslində Koreya Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri, beynəlxalq təşkilatlardakı nüfuzu, dünya siyasətindəki mövqeyi, həmçinin Azərbaycanın Koreya ilə əlaqələri sistemli şəkildə təhlil olunur.

“Dünya siyasətində Sinqapur”, “Beynəlxalq münasibətlərdə Malayziya” və “Vyetnam Sosialist Respublikası dünya siyasətində” bölmələrində dünya siyasətində gedən proseslərin işığında Sinqapur, Malayziya və Vyetnam kimi ölkələr bir sıra aspektlər üzrə: siyasi-iqtisadi, eləcə də diplomatik və mədəni əlaqələr cəhətdən geniş elmi təhlil obyekti kimi seçilib. Qeyd olunan ölkələrin Azərbaycanla ikitərəfli və çoxşaxəli əməkdaşlıq məsələləri geniş araşdırmaya cəlb edilib.

Beləliklə, müəllif tərəfindən Azərbaycan Respublikasının Çin, Yaponiya, Koreya, Sinqapur, Malayziya və Vyetnam kimi Asiya ölkələri ilə əməkdaşlığına xüsusi diqqət yetirilməsi əsərin maraq doğuran cəhətlərindən birinə çevrilib. Kitabda ayrıca yarımfəsillərdə ölkəmizin qarşılıqlı iqtisadi, siyasi, diplomatik, eləcə də mədəni və ədəbi əlaqələri elmi təhlil süzgəcindən keçirilib. Rza Talıbov Asiya ölkələrinin Azərbaycan Respublikası ilə əlaqələrindən bəhs edərkən bu istiqamətdə ölkəmizdə müstəqillik dövründə ardıcıl olaraq məqsədyönlü şəkildə həyata keçirilən dövlət siyasətinin əhəmiyyətini geniş şərh edib. Müəllifin elmi qənaətində dünya siyasətinin əsas mərkəzlərindən birinə çevrilmiş Asiya ilə əməkdaşlıq Azərbaycan dövlətinin yeni tarixi epoxadakı aparıcı istiqamətlərindən biri kimi əsaslandırılıb.

Adları çəkilən region ölkələrinin tarixinə də qısa ekskurs edilən əsərdə müəllif çoxsaylı elmi və elmi-kütləvi mənbələrə istinad edərək məqsədyönlü şəkildə oxucuya dərin məzmunlu və hərtərəfli bilik vermək missiyasını uğurla yerinə yetirib. Kitabın mənbəşünaslıq bazası geniş və zəngindir.




Nəşrin elmi redaktoru tarix elmləri doktoru, professor Ağalar Abbasbəyli, rəyçilər tarix elmləri doktoru, professor Zeynal Həsənəliyev və hüquq üzrə fəlsəfə doktoru, dosent Mehriban Babazadədir.

Kitab ali məktəblərin “beynəlxalq münasibətlər” ixtisasının tələbələri üçün dərs vəsaiti kimi nəzərdə tutulur. Bundan başqa, bu vəsaitdən tədqiqatçılar, siyasətçilər, müəllimlər və tələbələr də istifadə edə bilərlər.

**AzərTAc**



*1924-cü il yanvarın 18-də Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumunun qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinin nəzdində Naxçıvan Daxili İşlər Komissarlığı yaradılmış və bununla da, muxtar respublikada polis orqanlarının formalaşmasının əsası qoyulmuşdur.*

*18 yanvar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikanın daxili işlər orqanlarının fəaliyyəti təkmilləşdirilir

Naxçıvan polisi tarixi inkişaf yolu keçmiş, fəaliyyəti dövründə böyük təcrübə qazanaraq yüksək bilik və peşəkarlıq əldə etmiş, təşkilati cəhətdən möhkəmlənmişdir. 1920-1940-cı illərdə Naxçıvan polisi öz mətinliyi ilə sabitliyi və asayişi uğurla təmin etmiş, 1941-1945-ci illər müharibəsi dövründə ön cəbhədə faşistlərə qarşı mərdliklə vuruşmuşdur. 1988-1993-cü illərdə erməni silahlı birləşmələrinin torpaqlarımıza hücumu zamanı da ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə Naxçıvan polisi rəşadətlə mübarizə aparmışdır.

Azərbaycanda daxili işlər orqanlarının əsl inkişafı və təşkilatlanması, bu sistemin milliləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra daxili işlər orqanlarına dövlət qayğısı gücləndi, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında təlim-tərbiyəsinə, peşəkarlığın yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, kadr sisteminin yenilənməsi, zəngin qanunvericilik bazasının yaradılması, ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığın qarşısının alınması sahəsində görülən işlər daha geniş vüsət almışdır. Bu dövrdən başlayaraq ulu öndər tərəfindən “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Fərman imzalanmış, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar, “Daxili İşlər Nazirliyi haqqında” və “Daxili işlər orqanlarında xidmətkeçmə haqqında” əsasnamələr və digər normativ-hüquqi aktlar qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Hər bir müstəqil dövlət üçün onun daxili işlər orqanları xüsusi əhəmiyyətə malikdir. Azərbaycanda ictimai-siyasi sabitliyin, asayişin qorunmasında polisin rolu çox yüksəkdir. Azərbaycan polisinin çox böyük və şərəfli yolu var. Bu yol Azərbaycan dövlətçiliyinin yoludur”.*** Ümummilli liderin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti inkişafın başlıca şərti kimi sabitliyin, əmin-amanlığın təmin olunmasını və hüquq-mühafizə sistemlərinin fəaliyyətinin genişləndirilməsini diqqət mərkəzində saxlayır. Ölkə başçısının rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində bu gün fəxrlə demək olar ki, Azərbaycan polisi öz peşəkarlığı, Vətənə, xalqa və dövlətçiliyə bağlılığı ilə seçilir.

Ölkəmizdə hüquq-mühafizə orqanlarının inkişafı sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarını da əhatə etmişdir. Bu gün muxtar respublikanın daxili işlər orqanları qarşıya qoyulan məqsədlərə nail olmaq üçün yeni iş metodları tətbiq edir, hüquqazidd əməllərin qarşısının alınmasında və ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaş cəmiyyəti ilə əlaqələri möhkəmləndirir. Şəxsi heyətin peşə hazırlığı, milli dəyərlərə sadiqlik ruhunda tərbiyə olunması, əhalinin müxtəlif təbəqələri və kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Bununla yanaşı, ötən müddətdə Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilmiş, nazirliyin inzibati binası da daxil olmaqla bütün ərazi, xətt polis orqanlarının inzibati binaları yenidən qurulmuş, xidmətin nümunəvi təşkilinə və operativliyin təmin olunmasına imkan verən müasir avtomobillər və digər texniki avadanlıqlar alınıb gətirilmişdir.

Muxtar respublika daxili işlər orqanlarında xidmət edən əməkdaşların sosial-məişət problemlərinin həllinə də hərtərəfli dövlət qayğısı göstərilir. Bu gün hər bir polis nəfəri yüksək əməkhaqqı və müalicə xərcləri ilə təmin edilir, xidmətdə fərqlənən əməkdaşların əməyi qiymətləndirilir. Bütün bunlar cinayətkarlığa qarşı mübarizədə daxili işlər orqanlarının əməkdaşlarının daha böyük səylə çalışmasına, nümunəvi xidmət göstərməsinə stimul verir. Öz işini qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi prinsipləri üzərində quran Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti fəaliyyətini inkişaf etmiş dövlətlərin hüquq-mühafizə orqanlarının qabaqcıl təcrübəsinə, Azərbaycanın dövlətçilik ənənələrinə əsaslanaraq və milli dəyərlərimizin qorunması zəminində uğurla davam etdirir.

Muxtar respublikada cinayətkarlığa qarşı mübarizə sahəsində insan amilinə üstünlük verilməsi, profilaktik tədbirlərin daha effektli və əsaslı şəkildə həyata keçirilməsi müsbət nəticələrin qazanılmasına səbəb olmuşdur. Naxçıvan şəhərinin müxtəlif yerlərində quraşdırılmış təhlükəsizlik kameraları cinayətkarlığa qarşı mübarizədə ən yaxşı vasitələrdən biridir. Bu kameraların həm profilaktik nöqteyi-nəzərdən, həm də cinayətlərin aşkara çıxarılması, qeydiyyatı və açılması baxımından mühüm əhəmiyyəti vardır. Digər tərəfdən, muxtar respublikanın bütün yaşayış məntəqələrində, ən ucqar dağ kəndlərində belə, əməkdaşların səmərəli fəaliyyəti üçün müasir xidmət şəraiti yaradılmışdır. Görülən tədbirlərin nəticəsidir ki, muxtar respublikada cinayətlərin açılma faizi 100 faizdən aşağı enmir. Artıq muxtar respublikada cinayətlərin sayı 20 il bundan əvvəllə müqayisədə dəfələrlə azalmışdır.

Daxili işlər orqanları əməkdaşları maarifləndirmə işini də daim diqqət mərkəzində saxlayır. Polis əməkdaşları mütəmadi olaraq əhali arasında, xüsusilə də təhsil müəssisələrində maarifləndirici söhbətlər aparır, sakinlərə qanunlarda edilən dəyişikliklər, hüquq və qanun pozuntuları zamanı tətbiq olunan cəza tədbirləri barədə məlumatlar verir, mətbuatda və televiziyalarda çıxışlar edirlər. Bu istiqamətdə görülən tədbirlərin nəticəsidir ki, Naxçıvanda sağlam cəmiyyət formalaşmış, asayiş təmin olunmuşdur.

Daxili işlər orqanları bundan sonra da muxtar respublikada sabitliyin qorunması üçün səylə çalışacaq, əhaliyə nümunəvi xidmət göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın 18-də yaradılmışdır. Fəaliyyət göstərdiyi müddətdə nazirliyin səlahiyyətləri bir neçə dəfə məhdudlaşdırılaraq başqa orqanlara verilmiş, sabit fəaliyyət istiqaməti olmamışdır. 1956-cı ildə onun səlahiyyətləri Ali Məhkəmə, prokurorluq və digər orqanlara verilmişdir. Ulu öndər Heydər Əliyev ölkəmizdə ilk dəfə rəhbərliyə gəlişindən sonra respublikanın qanunvericilik sisteminə, hüquq-mühafizə orqanlarının statusuna, ədliyyə sisteminə diqqət göstərmiş, nazirlik yenidən təsis edilərək onun vahid strukturu formalaşdırılmış, ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaradılmışdır. 1971-ci il mayın 5-də Naxçıvan MSSR Ədliyyə Nazirliyi yenidən təsis edilmişdir. 1990-cı il noyabrın 17-dən etibarən isə qurum Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi adlanmışdır.*

*18 yanvar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikada ədliyyə orqanlarının fəaliyyəti səmərəli təşkil olunmuşdur

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, hüquq sahəsində də islahatlar aparılmağa başlandı. Ümummilli liderin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində keçmiş Sovetlər Birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu, hüquq sisteminin fəaliyyətini tənzimləyən bütün əsas qanunlar və məcəllələr beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla yenidən qəbul edildi. Ulu öndərin “Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə” 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəmə qərarlarının və cəzaların icrası, normativ aktların qeydiyyatı, müvafiq məhkəmələrin maliyyə, digər maddi-texniki təminatlarının həyata keçirilməsi və digər sahələr üzrə əlavə səlahiyyətlər verildi. Bundan sonra azsaylı ştat vahidi ilə fəaliyyət göstərən nazirliyin aparatının yeni strukturu təsdiq edildi, yeni şöbə və bölmələr yaradıldı, gənc hüquqşünaslar ədliyyə orqanlarına işə qəbul olundular.

Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuş, mükəmməl normativ-hüquqi baza yaradılmışdır. Ötən müddət ərzində ölkəmizdə ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmış, gələcək perspektivlərə hesablanmış mühüm dövlət proqramları qəbul edilmişdir. Ölkə Prezidenti tərəfindən “Ədliyyə orqanlarının inkişafı haqqında” və “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” fərman və sərəncamların imzalanması, “Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Qanunun qəbul olunması bu sahənin inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur.

Muxtar respublikada da ədliyyə sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, ədliyyə orqanlarının fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində qurulması təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 25 aprel tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə” təsdiq edilmiş, nazirliyin muxtar respublikada ədliyyə sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanı kimi geniş fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Əsasnaməyə əsasən, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını və notariat orqanlarının fəaliyyətini tənzimləyir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və reyestrini aparır, müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə qərarlarının icrasını, penitensiar müəssisələrin fəaliyyətini təşkil edir. Həmçinin bələdiyyələrin işinin təşkilinə kömək və metodoloji yardım göstərilməsi, qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaq aparılması, məhkəmə ekspertizalarının keçirilməsi, hüquqi maarifləndirmə işi və digər məsələlər də Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinə aiddir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Məhkəmə və ədliyyə orqanları qarşısında qanunçuluğun təmin edilməsi və ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılması, qanun yaradıcılığı və hüquqi maarifləndirmə, insan haqlarının müdafiəsi, cəza-icra siyasətinin humanistləşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi, yüksək hazırlıqlı hüquqşünaslardan ibarət kadr potensialının formalaşdırılması kimi vəzifələr durur”.*** Muxtar respublikada bu sahədə həyata keçirilən ardıcıl islahatlar nəticəsində Ədliyyə Nazirliyinin rolu və əhəmiyyəti dövrün tələblərinə uyğun olaraq daha da genişlənmişdir. 2007-ci ildə nazirliyin tarixində ilk dəfə olaraq Penitensiar Xidmətin yaradılması muxtar respublikamızda cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərmişdir. Məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkməsini təmin etmək məqsədilə muxtar respublika ərazisində penitensiar müəssisələr tikilib istifadəyə verilmişdir. Bu gün məhkumların sosial reabilitasiyası, məşğulluğu və sağlamlığı diqqət mərkəzində saxlanılır.

Ölkəmizdə ilk dəfə olaraq Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi muxtar respublikamızda istifadəyə verilmişdir. Bu, insan hüquqlarının müdafiəsi sahəsində mühüm əhəmiyyətə malikdir. Çünki müasir tələblərə cavab verən bu müəssisələr istintaq altında olanların saxlanılması şəraitinin yaxşılaşdırılması ilə onların hüquqlarının təmin olunmasına, həm də məhkəmə baxışının və qərarlarının icrasının vaxtında icra edilməsinə əlverişli şərait yaradır. Burada məhkumların əmək vərdişlərinə yiyələnməsi, asudə vaxtın səmərəli təşkili məqsədilə istehsalat sahələri yaradılması məhkumların sosial adaptasiyasına köməklik göstərir.

Ekspertiza işinin təşkili ədliyyə fəaliyyətinin əsas istiqamətlərindən biridir. Muxtar respublikanın hüquq-mühafizə orqanlarının təyin etdiyi ekspertizaların aparılmasını operativ və qanunamüvafiq qaydada təmin etmək məqsədilə 2005-ci il 5 oktyabr tarixdə Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı yaradılmışdır. Filialın iş şəraitinin yaxşılaşdırılması məqsədilə inzibati binası genişləndirilərək təmir edilmiş, ekspertiza prosesində elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə edilməsinə diqqət artırılaraq qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, ən müasir standartlara cavab verən kriminalistik avadanlıqlar alınmış, yeni elmi-tədqiqat laboratoriyaları təşkil edilmişdir.

Hazırda filialda məhkəmə ballistika, məhkəmə trasologiya, daktiloskopiya, sintetik təbiətli və bitki mənşəli narkotik vasitələrin ekspertizası, məhkəmə əmtəəşünaslıq, məhkəmə yol-nəqliyyat, məhkəmə xətşünaslıq və sənədlərin kriminalistik texniki ekspertizası, məhkəmə iqtisad, məhkəmə psixoloji ekspertizası, məhkəmə yanğın-texniki ekspertizası, məhkəmə tikinti-texniki ekspertizası, nəqliyyat vasitələrinin detallarının ekspertizası, pul nişanlarının məhkəmə ekspertizasını aparmaq mümkündür.

Nazirlik Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 19 iyul tarixli “Normativ-hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiq edilməsi barədə” və 2011-ci il 18 fevral tarixli “Sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” fərmanlarına uyğun olaraq, Hüquqi Aktların Dövlət Reyestrini və sahibkarlıq sahəsində aparılan yoxlamaların reyestrini də həyata keçirir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin kollektivi əhalinin hüquqi maarifləndirilməsi işini də daim diqqət mərkəzində saxlayır. Əməkdaşlar ədliyyə sistemində həyata keçirilən islahatlar, görülən işlər barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırır, normativ-hüquqi aktların izahı istiqamətində ardıcıl işlər görür. Eyni zamanda nazirliyin elektron səhifəsi yaradılmış və muxtar respublikanın elektron hökumət portalına qoşulmuşdur. Bu da vətəndaşların maneəsiz, vaxt itirmədən nazirliyə müraciət imkanlarını genişləndirmişdir.

Bu gün muxtar respublikamızda gedən sürətli sosial-iqtisadi inkişaf nəticəsində müasir tələblərə cavab verən hüquq infrastrukturunun yaradılması nəticəsində əhalinin rahat və təhlükəsiz yaşayışına, hüquq və azadlıqlarının qorunmasına və ədliyyə orqanları qarşısında qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə nail olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin şəxsi heyəti bundan sonrakı fəaliyyətində də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, muxtar respublikamızın qüdrətlənməsi və inkişafı yolunda yorulmadan çalışacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikamızda səhiyyənin tarixi qədim dövrlərdən başlasa da, onun dövlət səviyyəsində təşkilatlanması ötən əsrin iyirminci illərinə təsadüf edir. 1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış və bununla da, səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur. Həmin dövrdən etibarən Naxçıvan səhiyyəsi inkişaf yolu keçərək əhalinin sağlamlığının əsl mühafizəçisinə çevrilmişdir.*

***18 yanvar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaranması günüdür***

# Naxçıvan səhiyyəsi hərtərəfli inkişaf yolundadır



Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra səhiyyənin inkişafının təmin edilməsi, müalicə-sağlamlıq işinin yaxşılaşdırılması məqsədilə mühüm tarixi qərarlar qəbul etmişdir. Bu dövrdə yeni tibb ocaqlarının tikilməsi, əhalinin kütləvi dispanser qeydiyyatına alınması və ixtisaslı həkim kadrlarının hazırlanması səhiyyə sisteminin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Ötən əsrin 70-80-ci illərində Naxçıvan şəhərində də respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm, onkoloji dispanserləri, Səhiyyə Nazirliyinin inzibati binası, rayon mərkəzlərində və kəndlərdə xəstəxana binaları, feldşer-mama məntəqələri tikilib istifadəyə verilmişdir. Ümummilli lider 1993-cü ildə ölkəmizdə yenidən hakimiyyətə qayıtdıqdan sonra digər sahələr kimi, səhiyyənin də yeni inkişaf mərhələsinin əsası qoyulmuş, Azərbaycanda insanların sağlamlığının qorunması, əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri son illər dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində layiqincə davam etdirir. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin və keyfiyyət amilinin artmasına imkan vermişdir.

Ölkəmizdə sosial-iqtisadi sahələrin bütün istiqamətləri üzrə müşahidə olunan uğurlu inkişaf muxtar respublika səhiyyəsini də əhatə edir. Blokadanın yaratdığı ağır şəraitdə əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Son illərin möhtəşəm quruculuq ünvanlarından olan Naxçıvan Diaqnostika-Müalicə və Doğum mərkəzləri, Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya, Onkoloji, Gigiyena və Epidemiologiya mərkəzləri, Naxçıvan Şəhər Təcili Tibb, Naxçıvan Uşaq Bərpa mərkəzləri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Şəhər Körpələr Evi, Ağciyər, Psixi Xəstəliklər dispanserləri, Darıdağ Arsenli Su Müalicəxanası, rayon mərkəzi xəstəxanaları bu gün bölgədə ən müasir səhiyyə müəssisələrindəndir.

Dövlət başçısı cənab İlham Əliyev muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək demişdir: ***“Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksəksəviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir”.*** Bütövlükdə, son 20 ildə muxtar respublikada 233 səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi bu sahəyə göstərilən diqqətin daha bir ifadəsidir. 2014-cü ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Kəngərli Rayon Mərkəzi Xəstəxanasının istifadəyə verilməsi Naxçıvan səhiyyəsinin həyatında əlamətdar hadisələrdən birinə çevrilmişdir. Ümumilikdə, ötən il ərzində 15 səhiyyə obyekti tikilmiş və ya yenidən qurulmuşdur. Belə ki, Şərur rayonunun Dizə, Babək rayonunun Qahab və Güznüt, Şahbuz rayonunun Nursu kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Diyadin, Babək rayonunun Naxışnərgiz, Ordubad rayonunun Aşağı Əylis, Culfa rayonunun Əlincə kəndlərində feldşer-mama məntəqələri istifadəyə verilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzinin binası əsaslı təmir olunmuş, Naxçıvan şəhərinin Qaraçuq, Şərur rayonunun Püsyan, Culfa rayonunun Bənəniyar kəndlərində həkim ambulatoriyalarının, Culfa rayonunun Şurud və Şahbuz rayonunun Gömür kəndlərində feldşer-mama məntəqələrinin tikintisi və yenidən qurulması işləri başa çatdırılmışdır.

Bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində təcili yardım, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji və tam komplektləşdirilmiş fizioterapevtik kabinələr fəaliyyət göstərir. Müasir aparat və cihazların köməyi ilə müxtəlif xəstəliklərin müalicə və müayinəsini aparmaq mümkündür.Yaradılan şərait qəbul olunmuş dövlət proqramlarının da vaxtında icrasına imkan verir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı” və 2014-cü il fevralın 17-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə müvafiq tapşırığı muxtar respublikamızda da uğurla icra olunmuş, 78 min 154 uşaq icbari dispanserizasiyaya cəlb edilmiş, 273 min 555 vətəndaş tibbi müayinədən keçirilmişdir.

Muxtar respublikamızın səhiyyə müəssisələri sırasında özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində maddi-texniki bazanın, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanır. Burada yüksəkixtisaslı həkimlər tərəfindən dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir tibbi avadanlıq, aparat və cihazlarla müayinə və müalicə işlərinin aparılması öz səmərəliliyini gündən-günə artırır. Kardioloji mərkəzdə quraşdırılan müasir aparatlar da xəstələrə yüksək səviyyədə xidmət göstərməyə imkan verir. Artıq ən mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır.

Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***

Muxtar respublikada əhalinin sağlamlığının qorunması ilə yanaşı, onların tibbi biliklərinin artırılmasına da diqqət yetirilir, səhiyyə maarifi işi gücləndirilir. Gənc ailələrdə səhiyyə maarifi işini, hamilə qadınlara patronaj xidməti, yenidoğulmuşların vaxtında qeydiyyata alınması, uşaqların elektron sağlamlıq kartları ilə təminatı və onlardan istifadə qaydasının öyrədilməsi diqqət mərkəzində saxlanılır. Həmçinin istehsal müəssisələrində bədbəxt hadisələr zamanı ilk yardım mövzusunda seminar və praktik məşğələlər keçirilir. Son illər həyata keçirilən profilaktik və əks-epidemik tədbirlər nəticəsində muxtar respublikada ana və uşaq ölümü minimuma enmiş, əhali arasında poliomielit, difteriya və malyariya kimi təhlükəli yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Türkiyə Respublikasından və Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatlar aparmaları ənənə halını almışdır. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstək olmuşdur. Hazırda aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stent qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq, səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, qısa müddətdə nümunəvi tibbi informasiya sistemi qurulmuş, nazirliyin rəsmi internet saytının müxtəlif elektron xidmətlər üzrə fəaliyyəti təmin olunmuş və “Elektron hökumət” portalına qoşulmuşdur.

Səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Hazırda Naxçıvan Muxtar Respublikasında əhaliyə 237 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Həmin tibb müəssisələrində 734 həkim, 2 mindən artıq orta tibb işçisi çalışır. Tibb işçilərinin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Ötən il 3 həkim Azərbaycan Respublikasının və 3 həkim Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, 2 nəfər “Tərəqqi” medalı, orta tibb işçilərindən 3-ü Azərbaycan Respublikasının və 5-i Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi, 1 həkim və 4 orta tibb işçisi “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi bundan sonra da əhalinin sağlamlığı keşiyində dayanacaq, səhiyyənin inkişafına öz layiqli töhfələrini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Ermənilər əsrlər boyu Azərbaycan torpaqlarında öz dövlətlərini yaratmaq istəyiblər. Bu istəklərini həm azərbaycanlıların soyqırımı, həm müharibə, həm də digər qanunsuz yollarla həyata keçirməyə cəhd göstəriblər. Ötən dövrlərin tarixi araşdırmaları bir daha sübut edir ki, Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması planları erməni siyasət dəllalları ilə çar Rusiyasının yuxarı eşalonunda təmsil olunan nümayəndələri tərəfindən I Pyotrun hakimiyyəti dövründən sonra planlaşdırılan siyasət idi. Tarix üzrə fəlsəfə doktoru Gültəkin Nəcəflinin bu mövzuda yazdığı və “İrs” jurnalında dərc olunan məqaləsini təqdim edirik.*

# XVIII əsrin II yarısında Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması planları

XVIII əsrin 60-cı illərində Həmədandan olan erməni İosif Emin “birləşmiş erməni-gürcü dövləti”nin yaradılması layihəsi ilə çıxış etdi. Layihədə Qarabağ xanlığının xristian məlikləri erməni dövlətçiliyinin yeganə varisləri kimi təqdim edilir, gürcü çarı II İraklinin başçılığı altında erməni-gürcü ordusunun yaradılması ideyası irəli sürülürdü. Bu ideyanın reallaşdırılması üçün İ.Emin 1758-ci ildə İngiltərə hökumətini faktiki idarə edən nazir Uilyam Pittlə görüşə bildi, lakin ondan dəstək ala bilmədi. Çünki bu layihə Britaniyanın maraqlarına cavab vermirdi. C.Ananyanın qeyd etdiyi kimi, İngiltərə üçün Türkiyə və İranla müttəfiqlik münasibətlərinin saxlanılması daha zəruri idi. Qərbdə dəstək qazana bilməyən İ.Emin öz sələfi İsrail Ori kimi Rusiyaya müraciət etmək qərarına gəldi. İngiltərədəki Rusiya səfirinin dəstəyi ilə 1761-ci ilin noyabrında o, Rusiyaya gəldi. Burada İngiltərə səfiri Robert Keyt və gürcü çarı II Teymurazla birlikdə kansler qraf Vorontsov tərəfindən qəbul edildi. Qüdrətli Rusiya imperiyasının protektoratlığı altında iki kiçik xalqın təhlükəsizliyinin mühüm qarantı kimi “birləşmiş gürcü-erməni dövlətinin yaradılması” layihəsi Vorontsovda maraq doğurdu. İmperatriçə Yelizavta “Cənubi Qafqazda erməni dövlətinin yaradılması Türkiyə ilə müharibə şəraitində olan Rusiya üçün xüsusi əhəmiyyət kəsb edərdi” fikrini söyləyərək bu layihəni rəğbətlə qarşıladı. Vorontsovun təqdimatı ilə İ.Emin II İraklinin yanına göndərildi. İ.Eminə görə, “II İrakli gürcü taxtacını tutmuş mənşəcə qədim erməni süləlısi Baqratidlər nəslindəndir”.

Tarixçi A.İoannisyan yazırdı ki, “Ermənistanın azad edilməsi işində gürcü dövləti mühüm rol oynaya bilərdi. Əhalisinin daha çoxu erməni olan Tiflis şəhəri ... mübarizə mərkəzi ola bilərdi”. Halbuki ingilis tarixçisi, gürcüşünas V.Alenin məlumatlarına görə, o dövrdə Tiflisdə yaşayan gürcülər, tatarlar (azərbaycanlılar) və ermənilər bərabər nisbətdə idilər. 1763-cü ilin yazında Kartli-Kaxeti çarı II İrakli İmeretiya çarı Solomon, habelə Qanzasar (Alban) patriarxı tərəfindən qəbul edildi. O, Qarabağın bir neçə xristian məliyi və İrəvan xanlığından olan ermənilərlə əlaqə yarada bilsə də, bu görüşlərdən bir nəticə hasil olmadı. Çünki II İrakli ermənilərin xatirinə Osmanlı imperiyası ilə konfliktə gedə bilməzdi. Emin “Rusiyanın himayəsi altında federativ erməni-gürcü dövlətinin” yaradılmasına bəslədiyi ümidlər puça çıxdı.

Qeyd edilməlidir ki, “vahid gürcü-erməni dövlətinin” yaradılması planında İ.Emin tərəfindən Kartli-Kaxeti çarlığına istinad edilməsi həmin dövrdə Cənubi Qafqazda erməni əhalisinin azsaylı olmasına bir daha dəlalət edirdi. Əks təqdirdə, ermənilər ayrıca erməni dövlətinin yaradılmasında baza rolunu oynaya bilərdilər.

XVIII əsrin 60-cı illərinin sonlarından başlayaraq imkanlı ermənilər (Lazarev, Kampanov, Manuçarov, Sarafov və başqaları) Rusiyanın Moskva və Peterburq kimi böyük şəhərlərinə köçməyə başladılar. Onlar burada məskunlaşaraq iri torpaq sahələrinə yiyələnir, manufakturalar açır, hətta rus zadəgan titulları da əldə edirdilər. Digər bir tərəfdən, onlar “Üçmüəzzin katalikosu və Qarabağın xristian məlikləri ilə Rusiya hakimiyyət dairələri arasında vasitəçi rolunu oynayırdılar”.

1768-1774-cü illər Rus-türk müharibəsində qələbədən və Kiçik Kaynarca sülh müqaviləsi (iyun 1774) imzalandıqdan sonra əlverişli şərtlərə yiyələnən Rusiya özünün Şərq siyasətini aktivləşdirməyə başlayır. Müharibə dövründə Həştərxan, Peterburq və Moskva erməniləri arasında Həştərxandakı tikiş manufakturasının sahibi Moisey Sarafovun (Movses Sarafyanın) Rusiyanın köməyi ilə “Ermənistanın azad edilməsi” ideyaları geniş şəkildə təbliğ edilirdi. 1769-cu ildə M.Sarafov imkanlı ermənilərin bir qrupu ilə birlikdə Rusiya Xarici İşlər Kollegiyasına “Ermənistanın azad edilməsi” və “Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması” layihəsini təqdim etdi. Rus qoşunları və gürcü qüvvələri ilə yanaşı, erməni könüllü dəstələrinin də iştirakı ilə “Ermənistan və Gürcüstan”a hərbi yürüşün təşkili bu planın başlıca ideyası idi. Bu plan Cənubi Qafqazda işğalçılıq siyasətini fəallaşdıran və ermənilərin həm maddi dəstəyinə, həm də vasitəçiliyinə ehtiyac duyan Rusiyanın istəklərinə cavab verirdi.

Rusiyada ermənilərin hamisi olan, zadəgan titulu əldə etmiş İvan Lazareviç Lazarev (Ovanes Aqazaroviç Lazaryan) Rusiyada erməni kilsəsinin başçısı arxiyepiskop İosif Arqutinski ilə yaxın münasibətlərdə idi. Rusiyanın bir sıra yüksək vəzifəli şəxslərinin, o cümlədən Q.A.Potyomkin, general A.V.Suvorov, kansler A.A.Bezborodkonun rəğbətini

*Ardı 4-cü səhifədə*

qazanan Lazarev Rusiyanın köməyi ilə və protektoratlığı altında erməni dövlətinin yaradılması ideyasını fəal şəkildə təbliğ edirdi.

1779-cu il avqustun 5-də İ.Arqutinski və İ.Lazarev Moskvadan Peterburqa gəldilər. Burada erməni kilsəsinin tikintisi başa çatmaq üzrə idi. Q.A.Potyomkin onlarla iki saat söhbət etdi, ertəsi gün Preobrajenski kilsəsində onları II Yekaterinaya təqdim etdi. 1780-ci il yanvar ayının əvvəllərində İ.Arqutinski və İ.Lazarev "mühüm məxfi dövlət işləri"ni müzakirə etmək üçün generallar – İvan Qoriç və Aleksandr Suvorovun yanına çağırıldılar. Onlar Xəzərətrafı vilayətlərə yürüşə hazırlaşan rus komandanlığına Cənubi Qafqaz şəhərləri haqqında, onlar arasındakı məsafə, ayrı-ayrı hakimlərin qoşunlarının sayı barəsində məlumat verdilər. 10 yanvar 1780-ci il tarixdə İ.Lazarev A.V.Suvorova "Ermənilər yaşayan ərazilərdəki siyasi vəziyyət və erməni dövlətinin bərpa edilməsi tədbirləri" haqqında məruzəni təqdim etdi. "İrəvanda ayrıca erməni dövlətinin yaradılması və böyük Ermənistanın bərpa edilməsi" ideyasının müzakirəsi gedişində knyaz Q.A.Potyomkinə "Qədim erməni ərazisi" adlanan saxta xəritə təqdim edildi. İ.Arqutinski və İ.Lazarev tərəfindən təqdim edilmiş "Ermənistan" və Cənubi Qafqaz haqqında obyektivlikdən uzaq informasiya Suvorova cəlbedici göründü. O, belə bir bəyanatla çıxış etdi ki, "erməni dövlətinin bərpa edilməsi" məsələsində "Rusiya ciddi addımlar atmaq fikrindədir". A.İoannisyan Lazarevin məruzəsini belə şərh edirdi: "Bu məruzədə göstərilir ki, Ermənistan hərçənd ki, öz dövlətçiliyindən bir neçə əsr əvvəl məhrum olub, lakin qarabağlılar indiyədək müstəqildirlər və öz milləti içərisində istənilən başçı olduğu halda Ermənistan asanlıqla bərpa oluna bilər. Əgər xalqın seçimi və ya əlahəzrətin lütfü ilə millətin içindən bir başçı ortaya çıxarılarsa, bu, ilkin olaraq kifayət edər ki, o, Dərbənddə möhkəmlənsin. Şamaxı və Gəncəyə yiyələnmək üçün ona köməklik edilərsə, onda, heç şübhəsiz, Qarabağ və Sığnaq da birləşəcəkdir. Kifayət qədər qoşun toplamaqla İrəvanı və digər şəhərləri ələ keçirmək asan olar. Bunun üçün yalnız ilkin düşərgə, iki və ya yaxud üç minə qədər qoşun üçün ikiillik ehtiyat zəruridir. Bu əyalətlər ələ keçirildikdən sonra erməni "rəis" onların gəlirləri ilə "xeyli miqdarda qoşun" saxlaya bilər. Bununla belə, onun sərəncamında gələcəkdə də milli ordunu "nizami bilgilərlə" təlimləndirmək üçün müəyyən miqdarda rus piyadaları, habelə topçular olmalıdır. Bütün bu tədbirlər asanlıqla həyata keçirilə bilər və bu nəinki Rusiyanın şöhrətini yüksəldər, həm də Türkiyə dövləti və İranı xeyli dərəcədə sıxıntıya salar. Ermənistan öz sərhədlərini daha da genişləndirdikdən sonra öz gəlirləri ilə 15-20 minlik qoşun saxlaya bilər, türklərə və başqa birisinə qarşı müharibə olacağı təqdirdə 60 min nəfərdən artıq bir ordunu ortaya çıxara bilər".

İ.Lazarevin layihəsində Azərbaycan xanlıqlarının torpaqlarında Rusiyanın himayəsi altında erməni dövləti yaratmaq ideyası əks olunurdu. O ki qaldı layihədəki fantastik dərəcədə şişirdilmiş rəqəmlərə, bu yalnız Rusiya hakim dairələrinə xoş gəlsin deyə, edilən hiyləgərlik cəhdi idi. İ.Lazarevin layihəsi təkcə Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaqla məhdudlaşmırdı, o həm də gələcəkdə onu genişləndirməyi nəzərdə tuturdu. Lazarev "Türklərə məxsus ərazilər hesabına Ermənistan sərhədlərinin sonrakı genişləndirilməsinin mümkünlüyünü heç də gizlətmirdi".

Erməni tarixçilərinin "məşhur maarifçi, publisist və İosif Eminin ideyalarının davamçısı" kimi səciyyələndirdiyi Movses Baqramyan özünün "Yeni kitab və yaxud öyüd-nəsihət" (Madras, 1773) kitabında belə bir fikir söyləyir ki, dünyaya səpələnmiş ermənilərin vətəni ola biləcək "erməni dövlətini" bərpa etməyin yeganə yolu silahlı üsyandır. Cənubi Qafqazda erməni dövləti yaratmaq üçün sosial-iqtisadi və etnoqrafik zəminin olmaması şəraitində Baqramyanın proqramının reallaşdırılması Rusiyanın hərbi müdaxiləsi olmadan mümkün deyildi. Məsələnin bu cür radikal şəkildə qoyuluşunun məqsədi Osmanlı imperiyası ilə müharibə şəraitində olan Rusiyanın diqqətini "erməni məsələsinə" cəlb etməkdən ibarət idi.

Özgə torpaqlarında erməni dövləti yaratmaq ideyasının fəal tərəfdarlarından biri kimi Rusiyada erməni kilsəsinin arxiyepiskopu, Üçmüəzzin monastr məktəbinin məzunu İosif Arqutinski (Xovsen Arqutyan) çıxış edirdi. 1773-cü ildə o, yeparxiyanın keşişi kimi Rusiyaya göndərilmiş və hakimiyyət dairələri tərəfindən ermənilərin rəsmi nümayəndəsi kimi qəbul edilmişdi.

Tarixçi Esat Uras yazırdı: "1769-cu ildə rus qoşunları Bizansı (Bizansın keçmiş torpaqları, o vaxtkı Osmanlı əraziləri nəzərdə tutulur) ələ keçirib, onu xristianlığın mərkəzinə çevirməyə çalışırdı. Bu plana ermənilər laqeyd qala bilməzdilər. Məhz belə şəraitdə katalikos Xovsen Arqutyan Rusiyanın hakim dairələrinə erməni dövlətinin yaradılması layihəsini təqdim etmişdi. Layihə "Rusiya ilə qonşu müsəlman dövlətləri arasında sipər rolunda çıxış edəcək xristian dövlətinin – Ararat krallığının yaradılmasını" nəzərdə tuturdu. İ.Arqutinskinin layihəsi Rusiya hakimiyyətinə 1768-1774-cü illər rus-türk müharibəsindən dərhal sonra təqdim edilmişdi və o, müharibənin nəticələrinə hesablanmışdı. Qeyd etmək lazımdır ki, 1774-cü il qələbəsindən sonra Rusiyada Cənubi Qafqaza maraq xeyli güclənmişdi, 1779-cu ildə isə bu regiona hərbi yürüş planı qəbul edilmişdi.

1780-ci ilin fevralında Peterburqda başda knyaz Q.A.Potyomkin olmaqla rus ali dairəsinin iştirakı ilə müqəddəs Yekaterinanın şərəfinə ucaldılmış yeni erməni kilsəsinin açılışı oldu. Əvvəlcədən rus dilinə tərcümə edilərək çap olunmuş və iştirakçılara paylanılmış moizə ilə çıxış edən arxiyepiskop İ.Arqutinski erməni xalqının "dözülməz və dəhşətli dövrünü" qabardaraq erməni tarixinin icmalını verirdi. "Lakin şanlı-şöhrətli Rusiya ölkəsindən öz lütfünü əsirgəməyən Allah Böyük Pyotrda bədbəxt Haykanlar ölkəsinə mərhəmət hissini oyatmışdı. Bu istəklər həyata keçirilmədi, lakin Allah Yekaterinanın simasında layiqli varis göndərdi ki, o da erməni xalqını öz himayəsi altına qəbul etdi".

XVII əsrin 70-ci illərindən başlayaraq Madrasda Şaamir Şaamiryanın rəhbərliyi altında ermənilərin məskunlaşdığı torpaqların azad edilməsi və müstəqil erməni dövlətinin yaradılmasını təbliğ edən qrup yaradılmışdı. Hindistandan olan erməni Şaamiryan tərəfindən bu dövlətin siyasi quruluşu məsələlərinə dair layihə hazırlanmışdı: gələcək "müstəqil erməni dövləti"nin başında çar durmalı, Rusiya ilə əbədi saziş imzalamalı və Peterburqda daimi nümayəndəlik açılmalı idi.

1773-cü ildə işıq üzü görən kitabında Ş.Şaamiryan erməni xalqının tarixi və coğrafiyasını məharətlə saxtalaşdırmışdı. O, Üçmüəzzin katalikosuna və Qarabağ məliklərinə ünvanladığı məktubunda erməni dövlətini yaratmaq işində onları daha fəal iştirak etməyə çağırırdı. Şaamiryan katalikos Simeona ermənilərin məskunlaşdığı torpaqların "azad edilməsi" uğrunda mübarizə üçün fəaliyyət proqramını əks etdirən məktub göndərmişdi. Məktubda "Hər şeydən öncə, gürcü çarı İrakli və Qarabağ məliklərinin birləşməsinə nail olmaq zərurəti" və rus imperatriçəsinə xüsusi müraciət etmək təklifi diqqəti cəlb edir. Katalikosa "Erməni əhalisini siyahıya almaq, azadlıq mübarizəsini maliyyələşdirmək üçün pul toplamaq və hərbi iş təlimini həyata keçirmək, yəni üsyan hazırlamaq" təklif olunurdu. Ş.Şaamiryan Qarabağın xristian məlikləri ilə də yazışırdı. O, Alban katalikosu İosifə erməni katalikosuna yazdığı məzmunca eyni olan məktubla bərabər, hədiyyə olaraq tüfəng və tapançalar da göndərmişdi. Ş.Şaamiryanın ideyası kilsənin vəsaiti hesabına ermənilərin məskunlaşdığı bütün torpaqlarda (Kiçik Asiyanın şərqindəki, şimali İrandakı və İrəvan xanlığının bəzi rayonlarındakı torpaqlarda) üsyanlar təşkil etməyi nəzərdə tuturdu. Cənubi Qafqazın erməni əhalisinin azsaylı olmasını nəzərə alaraq, o, Alban katalikosu və Qarabağın xristian məliklərini də bu mübarizəyə cəlb etməyi planlaşdırırdı. O, bu planların reallaşdırılmasında ermənilərə kömək edə biləcək yeganə qüvvəni Rusiya imperiyasının simasında görürdü. Madrasda erməni dərnəyi iki hissə və 152 maddədən ibarət olan konstitusiyanın layihəsini çap etmişdi: gələcək dövlət ya respublika, ya da İngiltərə nümunəsində konstitusiyalı monarxiya olmalı idi.

Simeonun varisi katalikos Qukas Cənubi Qafqazdakı hadisələr haqqında Şaamiryanı məlumatlandırdı. Cavab məktubunda erməni ideoloqu onu öz əqidəsinə görə, yalnız "milli üsyan"ın təşkili yolu ilə həyata keçirilə biləcək ermənilərin azadlığı uğrunda mübarizədə kifayət dərəcədə fəaliyyət göstərməməsinə görə qınayırdı. Bu məsələdə Ş.Şaamiryan İraklinin və "Böyük şimal dövləti"-Rusiyanın köməkliyinə ümidlər bəsləyirdi. 1783-cü ildə şimali Gürcüstanın Rusiya protektoratlığını qəbul etməsini təsbit edən Georgi traktatının imzalanmasından xəbər tutan Ş.Şaamiryan növbəti məktubunda II İrakliyə qızıl tac, gürcü-erməni ittifaqı rəmzlərinin təsviri olan brilyantlarla bəzədilmiş qızıl orden göndərir. Şaamiryan Kartli-Kaxeti çarlığının Rusiyanın himayəsinə qəbul edilməsini öz planlarının həyata keçirilməsi üçün əlverişli şans kimi dəyərləndirirdi. Qeyd etmək lazımdır ki, I Pyotrun epoxasından üzübəri erməni xadimləri erməni dövləti yaratmaq məqsədilə təsir imkanı olan şəxslərin ələ alınmasından tez-tez istifadə edirdilər. Rus və gürcü xadimlərinə verilən bahalı hədiyyələr içərisində vaxtı ilə müsəlman-türk hökmdarlarına məxsus olmuş və müxtəlif yollarla ələ keçirilmiş bahalı əşyalar da var idi. 1784-1785-ci illərdə Ş.Şaamiryan katalikos Qukas vasitəsilə Qarabağ məlikləri və II İrakliyə öz ideya və planlarını əks etdirən işləri, o cümlədən çap etdirdikləri saxta erməni dövlətinin xəritəsini yolladı. Azərbaycan torpaqlarında erməni dövlətini yaratmaq üçün Şaamiryan Rusiyanın ən yüksək hakim dairələri ilə də əlaqələrin qaydaya salınmasına çalışırdı. O, Madras ermənilərinə hətta təklif edirdi ki, Kizlərə köçüb Rusiya təbəəliyini qəbul etsinlər. Ş.Şaamiryan tərəfindən 19 bənddən ibarət olan "Rus-erməni müqaviləsinin layihəsi" tərtib edilmişdi.

İ.İoannisyan belə yazır: "erməni-rus müqaviləsi"nin (20 bənd) İ.Arqutinski tərəfindən Rusiya hakimiyyətinə təqdim edilmiş ikinci variantı Şaamiryanın 1 yanvar 1786-cı il tarixdə ona ünvanladığı məktubda öz əksini tapmış layihəsindən istifadə edilməklə tərtib edilmişdi. İ.Arqutinski bütün tarixləri dəyişərək layihəni öz adından təqdim etmişdi. Bununla bağlı rus qafqazşünası V.Veliçko tərəfindən İ.Arqutinskiyə verilmiş xarakteristikanı xatırlamamaq mümkün deyil: "Adıçəkilən arxiyepiskopun müasiri P.Q.Butkov İosifin son dərəcə mənsəbpərəst olduğunu təsdiqləyərək göstərir ki, o guya öz qohumunu Ermənistanın çarı etməyə hazırlaşırdı və bunun üçün hətta çar tacı da hazırlamışdı. Hələ Rusiyada olarkən, Arqutinski-Dolqoruki Üçmüəzzin patriaxı taxtına əyləşməyə hazırlaşarkən, o, patriarx libasında qravüralı portretini də sifariş etmişdi".

Arqutinskinin layihəsinə görə, erməni hökmdarları mənşəcə erməni olmalı və erməni-qriqoryan kilsəsinə mənsub olmalıdırlar; ermənilərin müdafiəsi üçün dövlətin ərazisində 20 il müddətində rus qoşunları yerləşdirilməlidir.

Təsvir olunan iki layihə bir-birindən gələcək erməni dövlətinin Rusiya imperiyasından hansı formada asılı olacağı bəndi ilə fərqlənir. İ.Arqutinskinin layihəsi erməni dövlətinin Rusiyadan birbaşa vassal asılılığını, hətta erməni çarının imperator tərəfindən təyin olunmasını və daimi rus hərbi kontingentinin yerləşdirilməsini nəzərdə tuturdu. Ş.Şaamiryanın layihəsində isə Rusiyadan asılılıq illik xərcin ödənilməsi və müharibə zamanı müəyyən miqdarda döyüşçülərin verilməsi ilə məhdudlaşdırdı. Amma hər iki layihə ümdə məsələdə üst-üstə düşürdü. Həm Ş.Şaamiryan, həm də İ.Arqutinski erməni dövlətini Rusiyanın hərbi köməyilə Azərbaycan torpaqlarında yaratmağı planlaşdırırdı. Layihələr Rusiyanın Şərqə ekspansiyası şəraitində "erməni məsələsinin" aktuallıq kəsb etdiyi dövrdə ortaya çıxmışdı. İ.Arqutinskinin layihəsi Rusiya hakim dairələri tərəfindən daha optimal layihə kimi təqdim edilirdi. Görünür, oyuncaq erməni dövlətinin yaradılması Rusiya diplomatiyasının qarşıya qoyduğu vəzifələrin uğurla reallaşdırılması baxımından daha sərfəli idi.

Lakin XVIII əsrin 80-ci illərinin ortalarında vəziyyət bir qədər dəyişildi. Cənubi Qafqazı sülh yolu ilə ələ keçirməyi düşünən Rusiya hökuməti İranın şərqini özünə tabe edərək Əlimurad xanla danışıqlara başladı. "Erməni xadimləri əvvəlki kimi Kartli-Kaxeti çarlığına müəyyən ümidlər bəsləyirdilər. ... Şaamiryan gürcü çarına məktubunda belə bir ümid ifadə edirdi ki, Georgi traktatı sayəsində gürcü və erməni xalqlarını "əsirlik və zülmdən" azad etmək və Rusiyanın köməyilə müstəqil erməni-gürcü dövləti yaratmaq ona müyəssər olacaqdır".

Cənubi Qafqaza rus qoşunlarının yürüşünü sürətləndirməyə cəhd edən İ.Arqutinski Q.A.Potyomkinə ünvanladığı 10 sentyabr 1784-cü il tarixli məktubunda belə bir məlumat verirdi ki, indi "Ararat əhalisi oyanmışdır və o, knyaz Q.A.Potyomkinin köməkliyi ilə acı əsirlikdən azad olunmaq və süqut etmiş çarlığı bərpa etmək arzusundadır". Məktubda qeyd olunur ki, "məliklərin himayədarlığa xüsusi şərtlərlə qəbul edilməsi və öz istəklərinə uyğun olaraq, yalnız çar İraklidən asılı qalmaqla onların müstəqilliklərinin tanınması şərti ilə İbrahim xan imperatriçənin himayəsi altına qəbul edilə bilər". Açıq-aşkar görünür ki, İ.Arqutinskidə Rusiyanın Cənubi Qafqazda hərbi kampaniyaya başlaması fikirlərinə dair ciddi şübhələr yaranmışdı. A.İoannisyanın fikrincə, Qarabağ hökmdarı İbrahimxəlil xanın Rusiyaya müraciətindən xəbər tutan İ.Arqutinski narahat olmuşdu ki, Rusiya hakimiyyəti Qarabağ xanı ilə müqavilə bağlamaqla erməniləri unudacaqdır. Buna görə də Azərbaycan xanlıqlarının çox böyük ərazisini və Osmanlı imperiyasının bir hissəsini əhatə edən "böyük Ermənistan"ın yaradılmasına dair nəhəng planlarla bir il əvvəl çıxış edən İ.Arqutinskinin ambisiyaları indi yalnız İrəvan vilayətinin qərb torpaqları hüdudlarında "erməni çarlığı"nın yaradılması ilə məhdudlaşırdı. İ.Arqutinskinin şübhələri İ.Lazarev və onun qardaşı Minasa həmin ilin oktyabrında yazdığı məktublarında da özünü büruzə verirdi. O, Minasa məktubunda yazırdı ki, "əgər əvvəllər ruslar Ermənistanın azad edilməsi məsələsi ilə maraqlanırdılarsa, indi vəziyyət başqa cürdür: baxmayaraq ki, sərkərdə (P.S.Potyomkin) buna can atır, lakin, görünür, bu işə yuxarılarda soyuqluq vardır. İ.Arqutinski Peterburq ermənilərinin nümayəndəsi S.Saakyana bir il əvvəl tərtib etdiyi 18 bənddən ibarət "rus-erməni müqaviləsi"nin surətini "onu kimə lazımdır, göstərin" xahişi ilə göndərir. İ.Arqutinski knyaz Q.A.Potyomkinin razılığı, daha doğrusu, təşəbbüsü ilə Ş.Şaamiryanın erməni dilində Madrasda iki min tirajla nəşr olunmuş "Yeni kitabı"nın qismən rus dilinə tərcümə edilməsini və çapını təşkil edir. Kitab Peterburqda 1786-cı ildə podporuçik V.Vaqanovun tərcüməsində "Erməni çarlığının qısa tarixi və coğrafi təsviri..." adı altında yenidən nəşr olundu. A.İoannisyanın qeyd etdiyi kimi, heç də təsadüfi deyil ki, ön sözün ardınca yerləşdirilmiş abunəçilərin siyahısına Rusiyanın Cənubi Qafqazda apardığı işğalçılıq siyasətini fəal şəkildə həyata keçirənlərin adları, öz erməniperəst mövqeləri ilə tanınmış "rus hərbçi, diplomat və siyasətçiləri Bezborodko, Suvorov, Kutuzov, Qoriç, Orlov, A.R.Vorontsov və digərlərinin adları daxil edilmişdi".

Bunun belə, XVIII əsrin II yarısında Rusiya imperiyasına Cənubi Qafqazda müstəmləkəçilik planlarını reallaşdırmaq müyəssər olmadı və məhz buna görə də Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq layihələri uğursuzluğa düçar oldu.

**Gültəkin NƏCƏFLİ**
*tarix üzrə fəlsəfə doktoru*

### *İtmişdir*

Naxçıvan şəhəri, Xətai məhəlləsi 8/51C ünvanında yaşayan Qasımov Aslan Nazim oğlunun adına 14.06.2013-cü ildə verilmiş AA-007795 inventar nömrəli torpağın plan ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Yuxarı Uzunoba kənd sakini Quliyev Məmməd Məmmədhənifə oğluna məxsus qeyri-yaşayış binasının 26 aprel 2011-ci il tarixdə verilmiş 123 inventar nömrəli texniki pasport və 0020444 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "21-ci məhəllə", 4/14A ünvanında yaşayan Abdullayev Pərvin Zəfər oğluna məxsus AA-008912 inventar nömrəli torpaq sahəsinin plan ölçüsü və 0035752 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 39